# "Ömrün yaradıcılıq illəri"

**Təqdimatı keçirilən eyniadlı kitabın bələdçiliyi ilə yaradıcılıq hesabatı verən biblioqraf-jurnalist Adilə Qocayeva Azərbaycanın görkəmli xadimlərini oxucularına bir daha təqdim edir**




Azərbaycan Yazıçılar Birliyinin "Natəvan klubu"nda təqdimatı keçirilən "Ömrün yaradıcılıq illəri" adlı kitabla bağlı məlumat verən M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının nəşriyyat işləri şöbəsinin müdiri Mehriban Cəfərova bildirdi ki, bütün dövrlərin kəşfi olan hər kitab ən qiymətli xəzinədir: "Uzun illər jurnalist və kitabxanaçı işləyən, bu sahədə zəngin təcrübə qazanan Adilə Qocayevanı bu kitabı hazırlamağa vadar edən də bu xəzinəyə bir damla da olsa inci bəxş etməkdir. Müəllif Adilə Qocayeva 1983-2015-ci illərdə dövri mətbuatda dərc olunan yazıları ilə bağlı məlumatları "Ömrün yaradıcılıq anları"na toplamaqla "qəhrəmanlarına" ikinci həyat bəxş edir, mədəniyyət və incəsənət aləmində öz sözünü demiş, möhürünü vurmuş tanınmışların həyat yoluna, yaradıcılığına bələdçilik edir. 35-dən artıq mətbu orqanında dərc olunan 1500-dən artıq müəllif yazısı ilə bağlı məlumatları toplamaq çətin olsa da, istedadlı qələm sahibi və təcrübəli kitabxanaçı Adilə Qocayeva bu çətin və məsuliyyətli işin öhdəsindən gələ bilmişdir.

Bildirildi ki, kitabda yer almış görkəmli şəxsiyyətlərin, jurnalist həmkarlarının, iş yoldaşlarının Adilə Qocayevanın haqqında söylədiklərinin hər biri bacarıqlı qələm sahibi Adilə xanımın peşəkarlığına verilən qiymətdir. Yaradıcılığı özünün həyat qayəsi seçən, jurnalist və kitabxanaçı peşəsinə qəlbən bağlı olan və yaradıcılıq tələb edən hər iki sahəyə eyni dərəcədə dəyər verən Adilə Qocayevanın çalışdığı "İki sahil", "Azərbaycan", "Respublika", "Mənim balam" kimi mətbu orqanlarında dərc olunmuş yazılarının hər biri müxtəlif insanların taleyinə işıq salır, xalq arasında hörmət sahibi olanları geniş mənada ictimaiyyətə tanıdır. Seçdiyi mövzunu oxucusuna peşəkarcasına çatdıran Adilə xanımın müsahibələrindən də aydın olur ki, hədəf seçdiyi "qəhrəman" müəllifin səmimiyyəti qarşılığında bəlkə də indiyə qədər açmadığı yaradıcılıq sirlərini belə gizlətmir. Bu, Adilə xanımın səmimiyyətindən və jurnalist peşəsinə bağlılığından irəli gələn məharətdir. Müəllif haqqında söylənilən "əli işdən yorulmayan, qələmin sözü kəsərli xanım" sözləri də göstərir ki, "Qızıl qələm" mükafatı sahibi Adilə Qocayeva daim axtarışdadır, yazıları həvəslə sevilə-sevilə oxunur, soraqlanır.

Harada çalışmasından asılı olmayaraq işinə məsuliyyəti ən başlıca prinsip kimi yadda saxlayan Adilə xanımın ərsəyə gətirdiyi və təqdimatı keçirilən bu kitabı gərgin zəhmətinin bəhrəsidir.



Əsasən biblioqrafik xarakterli kitabda müəllifin dövri mətbuatda, kitablarda və məcmuələrdə çap olunan məqalələri əlifba sırası ilə göstərilmiş, haqqında qısa məlumatlar yerləşdirilmişdir. Adilə xanım bu kitabı hazırlamaqla bu günədək haqqında yazdığı görkəmli şəxsiyyətlərin haqqında gələcək nəsillər üçün də zəngin məlumat toplamışdır. Müsahibə aldığı incəsənət adamları ilə birgə çəkilən fotoların hər biri arxada qalan və tarixə çevrilən anları yaşadan, keçmiş illəri xatırladan, danışan "canlı" epizodlardır.

Özü haqqında yazdığı bölmədə "Hər bir məqaləmin arxasında maraqlı, nümunəvi insan taleləri, o cümlədən ibrətamiz hadisələr dayanır" söyləyən müəllifin "tanışlıq şəcərəsində" kimlər yoxdur. Tanınmış bəstəkarlardan Arif Məlikov, Şəfiqə Axundova, Aqşin Əlizadə, Tofiq Bakıxanov, məşhur müğənnilər Fidan və Xuraman Qasımova bacıları, Lütfiyar İmanov, Əlibaba Məmmədov, aktyor və aktrisalardan Hökumə Qurbanova, Həsən Turabov, Yaşar Nuri, Afaq Bəşirqızı, müğənnilərdən Mənsum İbrahimov, Canəli Əkbərov, Mələkxanım Əyyubova... Belələrinin sayı isə yüzlərlədir.

Tədbirdə çıxış edən M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının Diyarşünaslıq elmi-biblioqrafiya şöbəsinin müdiri Mədinə Vəliyeva, Əməkdar incəsənət xadimi, Üzeyir Hacıbəyli adına Musiqi Akademiyasının professoru İmruz Əfəndiyeva, şair Teyyub Qurban, "Yeni Təfəkkür" qəzetinin baş redaktoru Şəmsiyyə Musaqızı, həmkarı Məhərrəm Şəmkirli, iş yoldaşları... bir sözlə, Adilə xanımın sənətinə, yaradıcılığına yüksək dəyər verən hər kəs onu jurnalist, publisist kimi özünü doğruldan yaradıcı ziyalı adlandırdı. Jurnalistliklə yanaşı çalışdığı M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının təcrübəli biblioqrafı kimi tanınan Adilə Qocayeva səmimi dost, imzasına daim hörmətlə yanaşan bir ziyalıdır. Unudulmuş sənət adamlarını ictimaiyyətə tanıtmaqla xeyirxah iş görən Adilə xanıma bundan sonra da yaradıcılıq uğurları arzulayırıq.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***